**“Hərbi qulluqçuların statusu haqqında”, “İnzibati icraat haqqında”, “Təhsil haqqında” və “Elm haqqında” Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında” Əsasnamə”də və Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 18-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Hərbi qulluqçuların statusu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, 4, maddə 79; 1993, 5, maddə 132; Azərbaycan Respublikasının 1995-ci il 2 may tarixli 1030 nömrəli Qanunu; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, 5, maddə 378; 1998, 1, maddələr 15, 16; 1999, 4, maddə 228, 5, maddə 286; 2001, 1, maddə 16, 6, maddə 363, 11, maddə 694, 12, maddələr 731, 736; 2004, 2, maddə 57, 3, maddə 133, 4, maddələr 199, 212, 7, maddə 507, 8, maddə 596; 2005, 10, maddə 871, 12, maddə 1093; 2006, 4, maddə 312, 11, maddə 933; 2007, 6, maddə 561, 8, maddə 756, 11, maddələr 1053, 1078; 2008, 3, maddə 156, 6, maddələr 462, 481, 8, maddə 709, 12, maddə 1048; 2010, 3, maddə 171, 6, maddə 482; 2011, 2, maddə 71; 2014, 11, maddə 1333; 2015, 10, maddə 1085; 2016, 6, maddə 1011) 12-ci maddəsinin 3-cü hissəsində “alimlik” sözü “elmi” sözü ilə əvəz edilsin.

**Maddə 2.** “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 12, maddə 1084; 2006, 12, maddə 1031; 2008, 6, maddə 462; 2011, 7, maddə 592; 2014, 12, maddə 1516; 2016, 4, maddə 643; 2018, 12 (I kitab), maddələr 2470, 2530; 2019, 1, maddələr 5, 21, 2, maddə 184; 2020, 12, maddə 1901) 73.1-ci maddəsinə “müddətində” sözündən sonra “, elmi dərəcələr və elmi adlar verilməsi, xarici ölkələrdə verilmiş elmi dərəcələr və elmi adlar haqqında sənədlərin nostrifikasiyası (ekvivalentliyinin müəyyən edilməsi və tanınması) və ya təkrar attestasiya əsasında tanınması, elmi dərəcədən və elmi addan məhrumetmə (elmi adın və elmi dərəcənin bərpası) ilə bağlı inzibati aktlara münasibətdə isə bu inzibati aktlar qəbul edildiyi tarixdən 2 ay müddətində” sözləri əlavə edilsin.

**Maddə 3.** “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, 9, maddə 684; 2011, 2, maddə 70; 2014, 1, maddə 3; 2015, 11, maddə 1266; 2016, 1, maddə 41, 11, maddə 1766; 2017, 2, maddə 145, 5, maddə 691, 7, maddələr 1277, 1300, 12 (I kitab), maddə 2202; 2018, 7 (I kitab), maddələr 1381, 1409, 11, maddə 2208; 2019, 5, maddə 798, 7, maddə 1190, 8, maddə 1382; 2020, 11, maddə 1684, 12, maddə 1881) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.0.37-ci maddədə və 22.15-ci maddənin birinci cümləsində “pedaqoji” sözü “elmi-pedaqoji” sözləri ilə əvəz edilsin;

3.2. 22.14-cü maddənin birinci cümləsinə “elmi-pedaqoji” sözlərindən əvvəl “elmi və” sözləri əlavə edilsin;

3.3. 36.3-cü maddəyə “elmi-pedaqoji” sözlərindən əvvəl “elmi və” sözləri əlavə edilsin.

**Maddə 4.** “Elm haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, 8, maddə 1366; 2018, 11, maddə 2198; Azərbaycan Respublikasının 2020-ci il 24 aprel tarixli 59-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 6.0.25-ci maddədə “tanınması və bərabər tutulması” sözləri “nostrifikasiyası (ekvivalentliyinin müəyyən edilməsi və tanınması) və təkrar attestasiya əsasında tanınması” sözləri ilə əvəz edilsin;

4.2. 18-ci maddə üzrə:

4.2.1. 18.1-ci maddədə “müəssisələrdə və” sözləri “müəssisə və təşkilatlarda,” sözləri ilə, “müəssisələrin” sözü “müəssisə və təşkilatların” sözləri ilə əvəz edilsin və həmin maddəyə “şuralarının” sözündən əvvəl “(elmi-texniki)” sözləri əlavə edilsin;

4.2.2. 18.3-cü maddədə “Azərbaycan Respublikasında elmi müəssisələrdə və” sözləri “Elmi dərəcəsi olan, habelə Azərbaycan Respublikasında elmi müəssisə və təşkilatlarda,” sözləri ilə əvəz edilsin;

4.2.3. 18.5-ci maddənin ikinci cümləsində “plagiat faktının” sözləri “elmi plagiat” sözləri ilə əvəz edilsin;

4.3. 19-cu maddə üzrə:

4.3.1. 19.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“19.1. Dissertasiya şurası vahid sistem əsasında, uyğun ixtisaslar üzrə elmin, texnikanın, təhsilin, mədəniyyətin və incəsənətin müxtəlif sahələrində daim elmi araşdırmalar aparan, yüksəkixtisaslı elmi kadr potensialı olan mülkiyyət formasından asılı olmayaraq, elmi müəssisə və təşkilatlarda, ali təhsil müəssisələrində onların vəsatəti əsasında fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının müdafiəsinin təşkili üçün ali attestasiya orqanı tərəfindən yaradılır.”;

4.3.2. 19.2-ci maddədə “qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi əsasnaməyə uyğun həyata keçirilir” sözləri ilə əvəz edilsin;

4.3.3. 19.3-cü maddənin ikinci cümləsində “yaradılan birdəfəlik şurada” sözləri “yaradılmaqla,” sözü ilə əvəz edilsin;

4.3.4. 19.4-cü maddəyə “dissertantı” sözündən sonra “, adyunktu” sözü və “müəssisə və” sözlərindən sonra “təşkilat,” sözü əlavə edilsin;

4.3.5. 19.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

“19.5. Dissertasiya işinin elmi rəhbəri (elmi məsləhətçisi), rəsmi opponentlər, dissertasiya şuralarının və onların nəzdində yaradılan elmi seminarların sədrləri və üzvləri müdafiə olunmuş dissertasiya işinin məzmununun və elmi yeniliyinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi əsasnamənin tələblərinə uyğunluğunun müəyyən edilməsinə görə cavabdehdirlər.”;

4.4. 20-ci maddə üzrə:

4.4.1. 20.1-ci maddədə “müəssisənin və” sözləri “müəssisə və təşkilatın,” sözləri ilə əvəz edilsin və “dissertantlığını” sözündən sonra “, adyunkturasını” sözü əlavə edilsin;

4.4.2. 20.2-ci maddədə “müəssisənin və” sözləri “müəssisə və təşkilatın,” sözləri ilə, “adlara dair attestatlar həmin

müəssisənin” sözləri “adı təsdiq edən attestatlar həmin müəssisə və təşkilatın” sözləri ilə əvəz edilsin;

4.5. 27.3.9-cu maddədə “tanınması (nostrifikasiyası) və ya təkrar attestasiyası” sözləri “nostrifikasiyası (ekvivalentliyinin müəyyən edilməsi və tanınması) və ya təkrar attestasiya” sözləri ilə əvəz edilsin;

4.6. 33.3-cü maddəyə “işçilərin” sözündən əvvəl “və elmi-pedaqoji” sözləri əlavə edilsin.

**Maddə 5.** Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, 1, maddə 14; 2001, 3, maddələr 138, 145, 146, 147, 12, maddələr 731, 745; 2002, 6, maddə 328, 8, maddə 464; 2004, 2, maddə 57, 11, maddə 886; 2005, 7, maddələr 576, 588, 10, maddə 871; 2006, 4, maddə 312, 11, maddə 933; 2007, 8, maddə 756, 11, maddə 1078; 2008, 7, maddə 602, 8, maddə 695, 12, maddə 1048; 2010, 6, maddə 482; 2011, 2, maddə 71; 2015, 5, maddə 501; 2015, 10, maddə 1086, 11, maddə 1250; 2016, 1, maddə 16; 2017, 3, maddə 328, 12 (I kitab), maddə 2207; 2018, 12 (I kitab), maddə 2488; 2019, 2, maddə 180) ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”nin 147-ci maddəsinin 4-cü hissəsində “alimlik” sözü “elmi” sözü ilə əvəz edilsin.

**Maddə 6.** Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, 10, maddə 762, 12, maddə 973; 2010, 7, maddə 587; 2011, 6, maddə 485, 7, maddə 593; 2012, 5, maddə 410; 2013, 1, maddə 16, 11, maddə 1267; 2016, 1, maddə 12; 2017, 4, maddə 522, 5, maddə 752, 11, maddə 1976; 2018, 5, maddələr 855, 878, 7 (I kitab), maddə 1440; 2019, 1, maddə 23, 7, maddə 1199; 2020, 12, maddə 1899) 38.1-ci maddəsinə “müddətində” sözündən sonra “, elmi dərəcələr və elmi adlar verilməsi, xarici ölkələrdə verilmiş elmi dərəcələr və elmi adlar haqqında sənədlərin nostrifikasiyası (ekvivalentliyinin müəyyən edilməsi və tanınması) və ya təkrar attestasiya əsasında tanınması, elmi dərəcədən və elmi addan məhrumetmə (elmi adın və elmi dərəcənin bərpası) ilə bağlı inzibati aktlara münasibətdə isə bu inzibati aktlar qəbul edildiyi tarixdən 2 ay müddətində” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 8 may 2020-ci il
91-VIQD